Не удается отобразить связанный рисунок. Возможно, этот файл был перемещен,...

# «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 illiyi (2005 — 2010)» Azərbaycan Respublikasının yubiley medalının, «Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə», «Fövqəladə hallar orqanları ilə səmərəli əməkdaşlığa görə» və «Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə» Azərbaycan Respublikasının medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 illiyi (2005 — 2010)» Azərbaycan Respublikasının yubiley medalının, «Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə», «Fövqəladə hallar orqanları ilə səmərəli əməkdaşlığa görə» və «Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə» Azərbaycan Respublikasının medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli, 1112-IIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 illiyi (2005 — 2010)» Azərbaycan Respublikasının yubiley medalının, «Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə», «Fövqəladə hallar orqanları ilə səmərəli əməkdaşlığa görə» və «Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə» Azərbaycan Respublikasının medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 illiyi (2005 — 2010)» Azərbaycan Respublikasının yubiley medalının, «Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə», «Fövqəladə hallar orqanları ilə səmərəli əməkdaşlığa görə» və «Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə» Azərbaycan Respublikasının medallarının

təsis edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli, 1112-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə» Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə»nin 4-cü bəndində və «Fövqəladə hallar orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə»nin 2-ci bəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunla təsdiq edilmiş «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 illiyi (2005 — 2010)» Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə»nin 2-ci bəndində və «Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə» Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə»nin 4-cü bəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 12 noyabr 2010-cu il***

***№ 354***